**“Təsdiq edirəm”**
**Azərbaycan Dövlət Pedaqoji**
**Universitetinin rektoru**
**t.ü.f.d., prof.C.M.Cəfərov**
**07 fevral 2019-cu il**

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin
# Ağcabədi filialının Elmi Şurası haqqında
# Ə S A S N A M Ə

1. Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının (bundan sonra filialın) Elmi Şurası haqqında Əsasnamə “Azərbaycan Respubilkası qanunvericiliyinə, Təhsil Qanununa, Azərbaycan Respubilkası Elm və Təhsil Nazirliyinin normativ hüquqi aktlarına, təlimat və metodiki göstərişlərinə, qüvvədə olan digər qanunvericilik aktlarına, Ali təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsinə, Azərbaycan Respublikası Təhsil Nazirinin 10 noyabr 1997-ci il tarixli, 792 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssəsinin Elmi Şurası haqqında Əsasnamə”yə, ADPU-nun Nizamnaməsinə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin Elmi Şurası haqqında Əsasnaməyə, ADPU Elmi Şurasının 30 yanvar 2019-cu il tarixli iclasında qəbul edilmiş “Azərbaycan Dövlət Pedaqoji Universitetinin filialının Elmi Şurası haqqında Nümunəvi Əsasnamə”yə əsasən hazırlanmışdır və ADPU-nun Ağcabədi filialının Elmi Şurasının yaradılmasının və fəaliyyətinin əsas istiqamətlərini müəyyən edir.

2. Elmi Şura ADPU-nun Ağcabədi filialının kollegial idarə orqanıdır və filiala ümumi rəhbərlik bu Şura tərəfindən həyata keçirilir. Filial direktoru Elmi Şuraya sədrlik edir.

3. Elmi Şuranın səlahiyyət müddəti 3 ildir. Elmi Şuranın vaxtından əvvəl yenidən yaranması onun üzvlərinin ən azı 2/3 hissəsinin tələbi ilə həyata keçirilə bilər.

4. Elmi Şuranın tərkibinə seçilmə qaydası, onun hüquq və vəzifələri Azərbaycan Respubilkası Təhsil Nazirinin 10 noyabr 1997-ci il tarixli 792 nömrəli əmri ilə təsdiq edilmiş “Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə”yə zidd olmamaq şərti ilə aşağıdakı kimi müəyyənləşdirilir:

4.1. Tutduqları vəzifələrinə görə Elmi Şuranın tərkibinə ADPU-nun Ağcabədi filialının direktoru (sədr), tədris işləri üzrə direktor müavini (sədrin müavini), direktor müavinləri, elmi katib, dekanlar, filialın tərkibində fəaliyyət göstərən kafedraların müdirləri və digər struktur bölmə rəhbərləri, müəllim və tələbə həmkarlar ittifaqları komitələrinin, Tələbə Gənclər Təşkilatının və Tələbə Elmi Cəmiyyətinin sədrləri daxil olurlar. Elmi Şuranın digər üzvləri filialın professor-müəllim və elmi işçilərinin ümumi sayının 3-10%-ni təşkil edə bilər. Bu miqdar direktor tərəfindən professor-müəllim və elmi işçilərinin sayından asılı olaraq müəyyənləşdirilir. Bundan əlavə Elmi Şuranın tərkibinin 10%-ə qədəri filial direktoru tərəfindən ümumi saya əlavə olaraq təyin edilə bilər.

4.2. Elmi Şuraya namizədlər hər bir fakültənin, kafedranın və ya müvafiq struktur bölməsinin professor-müəllim və elmi işçilərinin ümumi iclasında gizli səsvermə yolu ilə seçilir. Fakültənin və ya müvafiq struktur bölmənin müəllim və elmi işçilərinin ümumi sayının 2/3 hissəsi iştirak etdikdə iclas səlahiyyətli sayılır. Fakültəyə ayrılan yerlərə iştirakçılardan 50%-dən daha artıq çox səs toplayanlar Elmi Şuraya üzv seçilmiş hesab edilirlər.

Bir əməkdaş şura üzvlüyündən çıxdığı halda boşalan yeri həmin fakültətin (bölmənin ) nümayəndəsi mövcud qaydada vaxtından əvvəl seçki keçirməklə tuta bilər.

5. Filialın Elmi Şurası:

- Filialının əsasnaməsini qəbul edir, əsasnamədə əlavələr və dəyişikliklər aparmaq üçün ADPU-nun Elmi Şurası qarşısında vəsatət qaldırır;
- Filialın Strateji İnkişaf Proqramını qəbul edir və təsdiq üçün ADPU-nun Elmi Şurasına təqdim edir;
- Filialın inkişafının ən vacib məsələlərini, tədris və elmi fəaliyyətinin müxtəlif istiqamətlərini, beynəlxalq əlaqələrini müəyyən edən qərarlar qəbul edir;
- Filial kollektivinin (tələbələrin, müəllimlərin, əməkdaşların və dinləyicilərin) daxili intizam qaydalarını təsdiq edir;
- Əsasnamələri, təlimatları və digər normativ sənədləri təsdiq edir;
- Filialın strukturunu müəyyənləşdirir, ona dəyişiklər və əlavələr edir;
- Filialın tələbə qəbulu planını müəyyənləşdirir;
- Hər il filialın büdcəsini müəyyənləşdirir, maliyə fəaliyyəti haqqında hesabatı dinləyir; fakültələrdə və kafedralarda vəzifə tutmaq üçün müsabiqə keçirməyin, kontraktların və müqavillələrin vahid qaydalarını müvafiq formada təsdiq edir;
- Kadr məsələlərinə baxır, filialın fakültə elmi şuralarının təklifi ilə müəllim, baş müəllim, dosent və professor vəzifələrini tutmağa iddiaçıların müsabiqəsinin keçirilməsi, o cümlədən onların vaxtından əvvəl tutduqları vəzifələrdən azad olunmaları barədə məsələlərə baxmaq üçün ADPU Elmi Şurası qarşısında vəsatət qaldırır. Fakültə və kafedralardakı laboratoriya müdurlərini seçir;
- Hər il filialın fəaliyyəti barəsində direktorun hesabatını dinləyir;
- Mütəxəsislərin, elmi-pedaqoji kadırların hazırlanması, onların əlavə təhsil məsələlərinə baxır, bütün təlim-tərbiyə və elmi-tədqiqat işləri ilə bağlı məsələləri həll edir;
- Şuranın işini təşkil etmək, iclasları hazırlamaq və qərarların həyata keçirilməsinə nəzarət etmək məqsədilə Şura üzvləri içərisindən şuranın katibini seçir və təsdiq üçün ADPU Elmi Şurasına təqdim edir;
- Fakültənin, kafedraların və filialın digər struktur bölmələrinin yaradılması, ləğvi, yenidən təşkili barəsində məsələləri həll edir;
- Vaxtaşırı fakültələrin tədris, elmi-tədqiqat və tərbiyə işləri haqqında hesabatını dinləyir;
- Filialı əməkdaşlarına "professor" və "dosent" elmi adlarının verilməsi haqqında ADPU Elmi Şurası qarşısında vəsatət qaldırır.
- Filial əməkdaşlarını respubilkanın fəxri ad və mükafatlarının, orden və medallarının verilməsinə təqdim edilməsi haqqında ADPU Elmi Şurası qarşısında vəsatət qaldırır;
- Filial əməkdaşlarının elmi-pedaqoji fəaliyyətə görə reytinq qiymətləndirməsinin aparılması haqqında qərar verir;
- Tədris planlarını təsdiq edir;
- Dərs vəsaitlərinin, tədris-metodiki vəsaitlərin, monoqrafiyaların və tədris proqramlarının nəşri üçün ADPU Tədris-Metodiki Şurası və Elmi Şurası qarşısında vəsatət qaldırır;
- İmtahanların keçirilmə qaydalarını və qiymətləndirmə kriteriyalarının müəyyən edir;
- Təqaüdlərin təyin edilmə qaydalarını qüvvədə olan normativlərə uyğun müəyyənləşdirir;

Kafedra müdiri və dekan vəzifələrinin tutulması üzrə müsabiqələri həyata keçirən Komissiya yaradır və onun tərkibini təsdiq edir, keçirilmiş seçkilərin nəticələrinin təsdiq edilməsi haqqında ADPU Elmi Şurası qarşısında vəsatət qaldırır;

- Müstəsna hallarda fakültə Elmi Şüraları olmadıqda və münaqişələr yarandıqda direktorun qərarı ilə dosent, baş müəllim və müəllimlərin vaxtından əvvəl işdən azad olunmaları barəsində məsələlərə baxır.

6. Elmi Şura filialın akademik təqvimini və tədris ili üçün nəzərdə tutulmuş iş planını təsdiq edir. Elmi Şuranın iş planı iclasda müzakirə olunub qəbul edilir və direktor tərəfindən təsdiq edilir.

7. Tədris, elmi və tərbiyə işlərinin bütün məsələri üzrə Elmi Şuranın qərarları açıq səsvermədə sadə səs çoxluğu ilə, professor-müəllim heyətinin seçilməsi və geri çağrılması, professor və dosent elmi adların verilməsinə təqdimat zamanı isə müyyən olunmuş qaydada gizli səsvermə yolu ilə qəbul edilir.

8. Elmi Şuranın iclasları ayda bir dəfədən az olmayaraq keçirilir.

9. Elmi Şuranın qərar çıxarması üçün iclasda onun üzvlərinin ən azı 2/3 hissəsinin iştirakı vacibdir. Elmi Şurada iştirak edənlərin ümumi sayının 50%-dən çoxu müzakirə olunan məsələnin lehinə səs verərsə, qərar qəbul olunmuş hesab edilir.

10. Elmi Şuranın qərarları yalnız başqa qayda müəyyən olunmayıbsa, filial direktoru tərəfindən təsdiq olunduqdan sonra qüvvəyə minir.

11. Elmi Şuranın iclasları protokollaşdırılır, Elmi Şuranın sədri və katibi tərəfindən imzalanır və Elmi Şuranın katibliyində saxlanılır.

12. Elmi Şuranın sədri Şuranın qərarlarının icrasının müntəzəm yoxlanılmasını təşkil edir və Şuranın üzvlərinə qəbul olunmuş qərarların yerinə yetirilməsi barəsində məlimat verir.

13. Əsaslı səbəblər olduqda – Elmi Şuranın qəbul etdiyi qərarın obyektiv olmadığı, qanunvericiliyə zidd olduğu müəyyənləşdirildikdə, filialın Elmi Şurasının qərarı ADPU Elmi Şurasının qərarı ilə rektor tərəfindən və ya Azərbaycan Respubilkasının Elm və Təhsil Nazirliyi tərəfindən ləğv oluna bilər.

14. Bu Əsasnamə filial Elmi Şurasında qəbul olunur, ADPU-nun rektoru tərəfindən təsdiq olunur və imzalandıqdan sonra qüvvəyə minir. Əsasnaməyə əlavə, dəyişiklik və düzəlişlər də eyni qaydada həyata keçirilir.

*Bu Əsasnamə ADPU-nun Ağcabədi filialının Direktor Şurasının 04 fevral 2019-cu il tarixli iclasında müzakirə edilib (Protokol №5) təsdiq edilmişdir.*